# “DÖVLƏT İMTAHAN MƏRKƏZİ” PUBLİK HÜQUQİ ŞƏXSİ

## Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun hazırlanmış Konsolidə Edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorun rəyi

31 Dekabr 2023-cü il tarixində bitmiş il üzrə

**"DÖVLƏT İMTAHAN MƏRKƏZİ" PUBLİK HÜQUQİ ŞƏXS**
**31 DEKABR 2023-CÜ İL TARİXİNƏ KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR BƏYANAT**

Aşağıdakı bəyanat, müstəqil auditorun konsolidə edilmiş hesabatında göstərilmiş auditorun rəyində olan vəzifələr haqqında müddəalarla birgə oxunmalıdır və Dövlət İmtahan Mərkəzi və onun törəmə müəssisələrinin (bundan sonra "Qrup") konsolidə edilmiş maliyyə hesabatları ilə əlaqədar rəhbərlik və müstəqil auditorlar arasında müvafiq vəzifə bölgüsünü əks etdirmək məqsədi daşıyır.

Rəhbərlik Qrupun 31 dekabr 2023-cü il tarixinə konsolidə edilmiş maliyyə vəziyyətini, həmin tarixdə bitən il üzrə fəaliyyətinin nəticələrini, pul vəsaitlərinin hərəkəti və kapitalda dəyişiklikləri Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına ("MHBS") müvafiq qaydada əks etdirən maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır.

Konsolidə edilmiş Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərlik:

- Müvafiq mühasibat prinsiplərinin seçilməsi və uyğun olaraq tətbiq edilməsi;
- Məntiqli və məqsədəuyğun qərarların və mülahizələrin qəbul edilməsi;
- Hər hansı əhəmiyyətli kənarlaşmaların açıqlanması və konsolidə edilmiş maliyyə hesabatlarında izah edilməsi şərti ilə MHBS-nın tələblərinə riayət olunması və;
- Əgər yaxın gələcəkdə, Qrup normal şərtlər altında fəaliyyətini davam etdirəcəyi güman edilirsə, hesabat tarixinə konsolidə edilmiş maliyyə hesabatlarının fəaliyyətin davamlılığı prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

Rəhbərlik həmçinin:

- Qrup daxilində səmərəli və yüksək səviyyəli daxili nəzarət sisteminin təşkili, tətbiqi və qorunması;
- Qrup konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və maliyyə vəziyyətini istənilən zaman düzgün əks etdirən mühasibat uçotu sisteminin təşkil olunması;
- Mühasibat uçotunun Azərbaycan Respublikasında qəbul edilmiş qanunvericilik və mühasibat uçotu standartlarına müvafiq qaydada aparılması;
- Mümkün imkanlardan istifadə edərək Qrupun aktivlərinin qorunmasının təmin edilməsi və.s;
- Saxtakarlıq, yanlışlıq və digər qanuna uyğunsuzluq halların müəyyən edilməsi və qarşısının alınması üçün məsuliyyət daşıyır.

Rəhbərlik tərəfindən:

| | |
|---|---|
| **Məleykə Abbaszadə** | **Allahverdiyev Rahib** |
| *İdarə heyətinin sədri* | *Maliyyə Departamentinin Müdiri* |

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT İMTAHAN MƏRKƏZİ

ABACUS
ABACUS AUDIT AND CONSULTING

## MÜSTƏQİL AUDİTORUN HESABATI

Biz, “Abacus Audit and Consulting” MMC olaraq (Azərbaycan Respublikası Auditorlar Palatası tərəfindən 03 iyun 2022-ci il tarixli AT/135 saylı icazə verilib) Publik hüquqi şəxsin və onun törəmə müəssisələrinin 31 dekabr 2023-cü il tarixlərinə konsolidə edilmiş maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixdə başa çatan il üzrə mənfəət və ya zərər, digər ümumi gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlardan, habelə mühüm mühasibat uçotu prinsiplərinin icmalı da daxil olmaqla konsolidə edilmiş maliyyə hesabatlarına dair qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Qrupda tətbiq edilən mühasibat uçotu qaydalarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) və Mühasibat Uçotunun Beynəlxalq Standartlarına (MUBS) uyğunluğunun dəyərləndirilməsini apararaq yeni MHBS və MUBS üzrə tövsiyyələrin verilməsini təmin etdik.

Hesab edirik ki, Qrupun əlavə edilmiş maliyyə hesabatları əksər əhəmiyyətli aspektlərdə Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun hazırlanmışdır.

### Rəy üçün əsas

Biz auditi Beynəlxalq Audit Standartlarına (“BAS”) uyğun olaraq apardıq. Bizim həmin standartlar üzrə öhdəliklərimiz hesabatımızın “Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti” bölməsində təsvir olunur. Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının “Peşəkar mühasiblərin etika məcəlləsi”nə (“MBESŞ Məcəlləsi”) uyğun olaraq biz PHŞ-dən müstəqilik və biz MBESŞ Məcəlləsinə uyğun olaraq etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

### Konsolidə edilmiş Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə, habelə saxtakarlıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərin olmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına zəmin yaradan zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Rəhbərlik Qrupun fəaliyyətinin fasiləsiz davam etdirilməsinin qiymətləndirilməsi və fəaliyyətin fasiləsizliyi ilə bağlı məlumatların açıqlanmasına, habelə fəaliyyətin fasiləsizliyi prinsipinə əsasən konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanmasına görə məsuliyyət daşıyır. Rəhbərlik bu prinsipə riayət edərkən “Publik hüquqi şəxslər haqqında” Azərbaycan Respublikasının Qanununun müddəalarını nəzərə alır. Həmin Qanunun 5-ci və 9-cu maddələrində müvafiq olaraq qeyd olunur ki, publik hüquqi şəxs müflis elan oluna bilməz və publik hüquqi şəxsin ləğvi və yenidən təşkili ilə bağlı məsələlər onun nizamnaməsi və Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

Rəhbərlik Qrupun konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

**Konsolidə edilmiş Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti**

Bizim məqsədimiz ümumiyyətlə konsolidə edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürülməklə hazırkı maliyyə hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi olaraq biz audit zamanı peşəkar mühakimə və peşəkar skeptisizm tətbiq edirik. Biz həmçinin:

- Konsolidə edilmiş Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını layihələşdirir və həyata keçirir, eləcə də rəyimiz üçün əsas yaratmaq məqsədilə kifayət və münasib olan audit sübutunu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir, çünki fırıldaqçılığa gizli sözləşmə, saxtakarlıq, bilərəkdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.
- Müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Qrupun daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmürük.
- Rəhbərlik tərəfindən istifadə edilmiş uçot prinsiplərinin münasibliyini, uçot təxminlərinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndiririk.
- Rəhbərlik tərəfindən mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının tətbiqinin münasibliyi və əldə edilmiş audit sübutlarına əsaslanaraq Qrupun daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi ilə bağlı əhəmiyyətli şübhə doğuran hadisə və ya şəraitlərlə əlaqədar mühüm qeyri-müəyyənliyin olub-olmaması haqqında nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gələcəyimiz halda, biz auditor hesabatımızda konsolidə edilmiş maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqəti yönəltməliyik və ya, əgər bu cür açıqlamalar qeyri-münasib olarsa, rəyimizə düzəliş etməliyik. Lakin gələcək hadisə və ya şəraitlər Qrupun daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməməsinə gətirib çıxara bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla konsolidə edilmiş maliyyə hesabatlarının ümumi təqdimatı, strukturu və məzmununu, eləcə də konsolidə edilmiş maliyyə hesabatlarının müvafiq əməliyyat və hadisələri düzgün təqdim edib-etmədiyini qiymətləndiririk.

Biz Qrupun idarə olunmasına cavabdeh şəxslərin nəzərinə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi, vaxtı və əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə müəyyən etdiyimiz hər hansı əhəmiyyətli çatışmazlıqları çatdırırıq.

Biz həmçinin Qrupun idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik. Qrupun idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə konsolidə edilmiş maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat

vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatımızda təsvir edirik.

**"Abacus Audit and Consulting" MMC**

**18 dekabr 2024-cü il**
**Bakı, Azərbaycan**

## “DÖVLƏT İMTAHAN MƏRKƏZİ” PUBLİK HÜQUQİ ŞƏXS KONSOLİDƏ EDİLMİŞ HESABATLARI

## 31 DEKABR 2023-CÜ İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeyd | 2023 | 2022* düzəliş edilmiş |
|---|---|---|---|
| Əməliyyat gəlirləri | 7 | 38,983,436 | 21,255,772 |
| Mal-material ehtiyatları üzrə qiymətdəndüşmənin bərpası üzrə gəlir | 14 | 120,979 | 383,053 |
| Digər gəlirlər | | 10,100 | 1,492,210 |
| **Cəmi gəlirlər** | | **39,114,515** | **23,131,035** |
| | | | |
| **Əməliyyat xərcləri** | | **(34,733,323)** | **(24,769,327)** |
| İşçi heyəti üzrə xərclər | | (21,777,210) | (16,159,236) |
| Amortizasiya xərcləri | | (2,907,007) | (3,105,301) |
| Çap və redaktə xərcləri | | (5,949,353) | (1,448,957) |
| Təmir və texniki qulluq xərcləri | | (513,959) | (546,717) |
| İcarə xərcləri | | (291,852) | (411,262) |
| Mühafizə xərcləri | | (255,081) | (263,926) |
| Ehtiyatların silinməsi xərci | | (284,433) | - |
| Material xərcləri | | (778,046) | (1,164,693) |
| Ezamiyyə xərcləri | | (148,454) | (217,663) |
| Ümidsiz borclar üzrə xərclər | | - | (150,800) |
| Digər vergi xərcləri | | (132,585) | (200,050) |
| Digər xərclər | | (1,695,343) | (1,100,722) |
| **Əməliyyat mənfəəti** | | **4,381,192** | **(1,638,292)** |
| İnvestisiya gəlirləri | 8 | 33,297 | 13,035 |
| Faiz xərcləri | | - | (14,661) |
| **Vergidən əvvəlki mənfəət** | | **4,414,489** | **(1,639,918)** |
| Mənfəət vergisi xərcləri | 19 | (675,641) | 16,549 |
| **Xalis mənfəət** | | **3,738,848** | **(1,623,369)** |

**Rəhbərlik tərəfindən:**

**Məleykə Abbaszadə**
*İdarə heyətinin sədri*

**Allahverdiyev Rahib**
*Maliyyə Departamentinin Müdiri*

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT İMTAHAN MƏRKƏZİ

"DÖVLƏT İMTAHAN MƏRKƏZİ" PUBLİK HÜQUQİ ŞƏXS

## KONSOLİDƏ EDİLMİŞ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT
### 31 DEKABR 2023-CÜ İL TARİXİ ÜZRƏ

*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeyd | 31-Dek-2023 | 31-Dek-2022* düzəliş edilmiş |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Qeyri-maddi aktivlər | 13 | 4,605,850 | 5,173,725 |
| Torpaq, tikili və avadanlıqlar | 12 | 30,165,742 | 28,205,190 |
| Təxirə salınmış vergi aktivləri | 19 | 532,031 | 649,519 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **35,303,623** | **34,028,434** |
| **Qısamüddətli aktivlər** | | | |
| Mal-material ehtiyatları | 14 | 2,261,489 | 1,953,548 |
| Sosial ödənişlər üzrə aktiv | | 184,932 | 942,520 |
| Ticari və digər debitor borcları | 11 | 126,749 | 28,546 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 9 | 8,319,345 | 2,492,309 |
| İnvestisiyalar | | 1,000,000 | 500,000 |
| Gələcək dövrün xərcləri və verilmiş avanslar | 10 | 31,568 | 2,590 |
| Digər qısamüddətli aktivlər | | 427 | - |
| **Cəmi qısamüddətli aktivlər** | | **11,924,510** | **5,919,513** |
| **Cəmi aktivlər** | | **47,228,133** | **39,947,947** |
| **Kapital və öhdəliklər** | | | |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | | 1,000,000 | 1,000,000 |
| Bölüşdürülməmiş mənfəət | | 21,797,435 | 18,058,587 |
| Digər kapital ehtiyatları | 18 | 22,459,543 | 19,585,692 |
| **Cəmi kapital** | | **45,256,978** | **38,644,279** |
| **Uzunmüddətli öhdəliklər** | | | |
| Təxirəsalınmış vergi öhdəlikləri | 19 | - | 4,941 |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | **-** | **4,941** |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Vergilər üzrə öhdəliklər | | 261,212 | 531,428 |
| Sosial ödənişlər üzrə öhdəliklər | | 28,351 | 22,612 |
| Malsatan və podratçılara kreditor borcları | 15 | 330,743 | 104,983 |
| İşçi heyətinə kreditor borcları | 16 | 249,298 | 124,732 |
| Gələcək dövrün gəlirləri və alınmış avanslar | 17 | 1,101,551 | 514,972 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **1,971,155** | **1,298,727** |
| **Cəmi öhdəliklər** | | **1,971,155** | **1,303,668** |
| **Cəmi kapital və öhdəliklər** | | **47,228,133** | **39,947,947** |

**Rəhbərlik tərəfindən:**

**Məleykə Abbaszadə**
*İdarə heyətinin sədri*

**Allahverdiyev Rahib**
*Maliyyə Departamentinin Müdiri*

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT İMTAHAN MƏRKƏZİ • İZEKMER

**“DÖVLƏT İMTAHAN MƏRKƏZİ” PUBLİK HÜQUQİ ŞƏXS**

**KONSOLİDƏ EDİLMİŞ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT**
**31 DEKABR 2023-CÜ İL TARİXİ ÜZRƏ**
*(Xüsusi göstərilmiş hallar istisna olmaqla, məbləğlər Azərbaycan manatı ilə təqdim edilir)*

| | Qeydlər | 2023 | 2022* düzəliş edilmiş |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətləri üzrə pul axını** | | | |
| İl üzrə (zərər) / mənfəət | | 3,738,848 | (1,623,369) |
| Amortizasiya xərcləri | | 2,907,007 | 3,105,301 |
| Faiz gəliri | | (33,297) | (13,035) |
| Faiz xərcləri | | - | 14,661 |
| Mənfəət vergisi xərci | 19 | 675,641 | (16,549) |
| Uzunmüddətli aktivlərin silinməsindən zərər | | 15,067 | 5,815 |
| Öncəki illər üzrə düzəlişlər | | - | (1,206,618) |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | **7,303,266** | **266,206** |
| *Əməliyyat xalis aktivlərində dəyişmə:* | | | |
| Ticari və sair debitor borcları | 11 | (75,974) | 101,796 |
| Mal-material ehtiyatları | 14 | (307,941) | 908,715 |
| Gələcək dövrün gəlirləri və alınmış avanslar | 17 | 586,579 | 296,993 |
| Digər qısamüddətli aktivlər | | (427) | 2,403 |
| Vergilər və sosial ödənişlər üzrə öhdəliklər | | 457,660 | 592,550 |
| Kreditor borcları üzrə | 15 | 350,326 | 361,050 |
| Gələcək dövrün xərcləri və verilmiş avanslar | 10 | (28,978) | 330,124 |
| **Vergi və faizlərdən əvvəl əməliyyat fəaliyyətindən əldə edillən xalis pul vəsaitləri** | | **8,284,511** | **2,859,837** |
| Ödənilmiş mənfəət vergisi | | (527,642) | (319,249) |
| Ödənilmiş faiz | | - | (14,661) |
| **Əməliyyat fəaliyyətlərindən yaranan xalis pul vəsaitləri** | | **7,756,869** | **2,525,927** |
| | | | |
| **İnvestisiya fəaliyyətləri üzrə pul axını** | | | |
| Əmlak, tikili və avadanlıqların alınması | 12 | (3,875,642) | (2,754,853) |
| Qeyri-maddi aktivlərin alınması | 13 | (439,109) | (381,189) |
| Depozitə qoyulmuş investisiyalar üzrə məxariclər | | (500,000) | (500,000) |
| Əldə edilmiş faizlər və dividendlər | | 11,067 | 19,744 |
| **İnvestisiya fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri** | | **(4,803,684)** | **(3,616,298)** |
| | | | |
| **Maliyyələşdirmə fəaliyyətləri üzrə pul axını** | | | |
| Borc götürülmüş vəsaitlərin qaytarılması | | - | (692,153) |
| Digər kapital ehtiyatları üzrə mədaxil | | 2,873,851 | 2,507,043 |
| **Maliyyələşdirmə fəaliyyətində istifadə edilən xalis pul vəsaitləri** | | **2,873,851** | **1,814,890** |
| | | | |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım** | 9 | **5,827,036** | **724,519** |
| Pul vəsaitləri və onların ekvivalentləri ilin əvvəlində | | 2,492,309 | 1,767,790 |
| **Pul vəsaitləri və onların ekvivalentləri ilin sonunda** | | **8,319,345** | **2,492,309** |

**Rəhbərlik tərəfindən:**

**Məleykə Abbaszadə**
*İdarə heyətinin sədri*

**Allahverdiyev Rahib**
*Maliyyə Departamentinin Müdiri*

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT İMTAHAN MƏRKƏZİ

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Digər kapital hesabları | Cəmi |
|---|---|---|---|---|
| **01-Yan-2022 tarixinə qalıq** | **1,000,000** | **17,699,425** | **17,078,649** | **35,778,074** |
| Əvvəlki illərə düzəliş | - | 1,982,531 | - | 1,982,531 |
| **01-Yan-2022 tarixinə düzəliş edilmiş qalıq** | **1,000,000** | **19,681,956** | **17,078,649** | **37,760,605** |
| İl üzrə mənfəət | - | (1,623,369) | - | (1,623,369) |
| İl üzrə mədaxil | - | - | 2,507,043 | 2,507,043 |
| **31-Dek-2022 tarixinə düzəliş edilmiş qalıq** | **1,000,000** | **18,058,587** | **19,585,692** | **38,644,279** |
| İl üzrə mənfəət | - | 3,738,848 | - | 3,738,848 |
| İl üzrə mədaxil | - | - | 2,873,851 | 2,873,851 |
| **31-Dek-2023 tarixinə qalıq** | **1,000,000** | **21,797,435** | **22,459,543** | **45,256,978** |

**Rəhbərlik tərəfindən:**

**Məleykə Abbaszadə**
*İdarə heyətinin sədri*

**Allahverdiyev Rahib**
*Maliyyə Departamentinin Müdiri*

AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT İMTAHAN MƏRKƏZİ